# KİTABXANALARDA DÖVLƏTÇİLİYİN TƏBLİĞİNƏ DAİR MƏLUMAT-İNFORMASİYA FONDUNUN YARADILMASI

**Mehmanəli Məmmədov**
*Pedaqogika üzrə fəlsəfə doktoru, kitabxanaşünaslıq kafedrasının dosenti*
*m.mehmanali@gmail.com*

**Həbib Əlizadə**
*Kitabxanaşünaslıq kafedrasının dissertantı*
*habibalizadeh@bsu.edu.az*

***Xülasə:*** *Azərbaycanın qədim dövlətçilik tarixi vardır. Bu tarixin dərindən araşdırılması, cəmiyyətdə təbliğ edilməsi müasir dövrün ən aktual məsələlərindən biridir. Məqalədə kitabxana-informasiya məkanında Azərbaycanın dövlətçilik ənənələrinin təbliğinin müasir vəziyyəti şərh edilmiş, yeni informasiya texnologiyalarının tətbiqində sonra dövlətçiliyin təbliğinə dair məlumat-informasiya fondlarının yaradılması barədə məlumat verilmişdir.*
***Açar sözlər:*** *dövlətçilik, təbliğat, kitabxana-informasiya məkanı, elektron kitabxana, elektron məlumat bazası, elektron kataloq, məlumat-informasiya fondu.*

**Giriş.** Müasir informasiya cəmiyyəti şəraitində ən prioritet əhəmiyyət kəsb edən vəzifə Azərbaycan dövlətçiliyinin xalqımızın arasında geniş təbliğ olunmasıdır. Cəmiyyətin bu sahədə informasiya təminatının ödənilməsində kitabxanaların rolu danılmazdır. Azərbaycanın müstəqiliyi şəraitində kitabxanalar dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində böyük məlumat-informasiya və təbliğatçılıq işi aparır. Kitabxanalar fundamental elmlərin nailiyyətlərindən istifadə edərək Azərbaycan dövlətçiliyinin təbliğinə xüsusi diqqət yetirməlidir. Dövlətçiliyin cəmiyyət həyatının bütün sahələrini əhatə etdiyindən onun təbliği kompleks problemdir. Kitabxanalar bu sahədə qarşısında duran vəzifələri yerinə yetirmək üçün bütün elm sahələrini əhatə edən zəngin fonda malik olmalıdır. Kitabxana fondunun formalaşması cəmiyyətdə baş verən hadisələrlə əlaqədar müntəzəm olaraq yenilənən bir proses olduğundan, onun daima diqqət mərkəzində olmasına və təşkilinə kitabxananın bütün kadr potensialının cəlb edilməsinə böyük tələbat vardır.

**Məsələnin qoyuluşu.** Azərbaycan dövlətçiliyinin təbliğində kitabxanalarda məlumat-informasiya fondunun yaradılması əsas prioritet məsələlərdən biridir. Ənənəvi kitabxana kataloqlarında, elektron kataloq və elektron kitabxanalarda Azərbaycandakı unikal dövlətçilik dəyərlərinin təbliği, ölkə daxilində və xaricdə tanıdılması, yayılması, dövlətçiliklə bağlı kitabların çap variantının əldə edilməsi, elektron variantının hazırlanması, geniş ictimaiyyətə çatdırılması, həm ənənəvi, həm də elektron sərgilərin, təqdimatların təşkili baxımından görülməsi vacib işlər, əslində bu prioritet məsələnin həllinə yönəlib

[1, s. 8]. Bu mənada kitabxanaların qarşısında çətin bir vəzifə durur. Belə ki, dövrü mətbuatda, internet resurslarında, elektron bazalarda dövlətçiliyin təbliğini əks etdirən materialların çap və elektron variantları çoxdur. Parəkəndə halda satılan, internetdə yerləşdirilən, yaxud elektron halda mövcud bu cür materialların toplanaraq vahid məlumat-informasiya fondunda cəmlənməsi, onların təbliğ olunmasına böyük ehtiyac duyulur. Belə bir fondun yaradılması istiqamətində Azərbaycanın iri kitabxanaları bir sıra addımlar atmağa başlamışlar. Belə ki, kitabxanaların ənənəvi və elektron kataloqlarında dövlətçiliyin təbliğinə dair məlumatlar əks edilməyə başlanmışdır. Bildiyimiz kimi təbliğat üçün internet resurslarının rolu çox böyükdür. Kitabxanalarda da bu istiqamətdə bir sıra addımların həyata keçirilməsi planlaşdırılır. Bir sıra kitabların və dövrü mətbuat nümunələrinin elektron versiyalarının hazırlamaq və yerləşdirmək, eləcə də sosial şəbəkələrdə bu barədə geniş məlumatlar yaymaq nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nda nəzərdə tutulan bir çox bəndlərin uyğun fəaliyyət istiqamətləri kitabxanalar tərəfindən əsas götürülüb [2, s.4]. Bunula da, kitabxanalarda Azərbaycandakı dövlətçilik dəyərlərinin təbliği, ölkə daxilində və xaricdə tanıdılması, yayılması, dünyaya çıxarılması haqqında kitabların elektron variantlarının hazırlanması, virtual resurslarda yerləşdirilməsi, sosial şəbəkələr vasitəsilə onların geniş ictimaiyyətə çatdırılması, e-təqdimatların, e-sərgilərin təşkili artıq özlüyündə məlumat-informasiya fondunun yaradılmasının əsasını qoymuş olur. Məlumat-informasiya fondunun əsas məqsədi dövlətçiliyin təbliğinə dair ədəbiyyatların toplanmasıdır. Əsas vəzifəsi isə dövlətçiliyin təbliğinə dair materialların ənənəvi fondda, elektron resursda cəmlənməsi, onlardan ibarət kitab sərgisinin, təqdimatların təşkili və təbliğidir. Kitabxanalar həmçinin bu fond vasitəsi ilə kütləvi informasiya vasitələrinə Azərbaycanın dövlətçilik ənənələrinin tanıtımına, təbliğinə köməklik göstərməyi də planlaşdırır. Belə ki, kitabxanaya gələn sorğular göstərir ki, oxucular, xüsusən də xaricdə yaşayan diaspor nümayəndələri, beynəlxalq tədbirlərdə iştirak edənlər, eləcə də elmi-mədəni fikrin qabaqcıl nümayəndələri müzakirələr, debatlar, dinləmələr zamanı elmi müqayisələr aparmaq üçün dövlətçiliyə dair lazımi ədəbiyyatlar əllərində olmur. Bu zaman isə nəinki ölkəmizdə yaşayan vətəndaşlar, həmçinin xaricdəki soydaşlar dövlətçiliyin təbliğinə dair məlumat-informasiya fonduna tələbat duyurlar. Bunun üçün respublika əhəmiyyətli kitabxanalarda dövlətçiliyin təbliğinə dair məlumat-informasiya fondlarının təşkili vacibdir.

**Məsələnin izahı.** Kitabxanalarda dövlətçiliyə dair məlumat-informasiya fondu komplektləşdirilərkən dövlətçiliyin təbliğinə dair ədəbiyyatın əldə edilməsi ilk növbədə ön plana çəkilməlidir. Hər bir kitabxananın məlumat-informasiya fondunda ümumilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin əsərləri, rəsmi dövlət sənədlərinin olması zəruridir. Hər bir kitabxananın məlumat-informasiya fondunun komplektləşdirmə planını tərtib edərkən dövlətçiliyin təbliğinə dair kompleks ədəbiyyat əldə edilməsini əvvəlcədən planlaşdırmaq lazımdır. Dövlətçiliyin təbliği dövrünün ən mühüm tələblərində biri olduğu üçün kitabxanalarda bu istiqamətdə geniş məlumat-informasiya işləri həyata keçirilməli, əhalinin informasiya tələbatını ödəmək üçün ciddi elmi kütləvi tədbirlər təşkil edilməlidir. Kitabxana işinin bütün iş üsullarından, formalarından istifadə edilməlidir. Kitabxanalar ənənəvi təbliğat formaları olan kütləvi işlərdən və üsullardan istifadə etməlidirlər. Paralel olaraq müasir informasiya cəmiyyətinin tələbinə uyğun olaraq ənənəvi iş forma və üsullarını informasiyalaşdırmalı, elektron kitabxana işinin kitabxanalara tətbiqinə çalışmalıdırlar [2, s. 6]. Kitabxanalarda tarixən formalaşmış və dövrün sınaqlarından keçmiş ədəbiyyat təbliğinin əyani və şifahi formalarından dövlətçiliyin təbliğində yaradıcılıqla, dövrün, zamanın tələbi nəzərə alınmaqla istifadə etmək olduqca faydalıdır. Kitabları bilavasitə özündə əks etdirən və oxucularda ən çox maraq doğuran, onların kitaba olan tələbatını artıran təbliğat forması kitab sərgiləridir. Kitab sərgiləri öz təşkili formalarına, məqsəd və məzmununa görə iki yerə ayrılır:

1. Kitabxanaya yeni daxil olan kitabların universal sərgisi;
2. Tövsiyə xarakterli tematik sərgilər.

Kitabxanalar dövlətçiliyi təbliğ etmək üçün sərgilərin hər iki formasından istifadə etməlidir. Dövlətçiliyin təbliğinə həsr edilmiş sərgilərin də iki formasından: daimi və yeni kitablar sərgisi formasından istifadə etmək olar. Tematik sərgilər isə ardıcıl olaraq dövlətçiliyin ayrı-ayrı komponentlərinə, məsələn: "Azərbaycan dövlətçilik ənənələri", "H.Əliyev və Azərbaycan dövlətçiliyi" və s. həmçinin Azərbaycan dövlətçiliyinin inkişaf istiqamətlərinə həsr edilən sərgilər: məsələn: "Dövlətin xarici əlaqələri", "Dövlətin daxili siyasəti", "Azərbaycan Konstitusiyası", "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır" və s. Müasir dövrdə kitabxanalarda dövlətçiliyi təbliğ etmək üçün ədəbiyyat təbliğinin şifahi formalarından da geniş istifadə etməlidirlər. Ədəbiyyatın şifahi təbliğat formalarına – "Yeni kitabların biblioqrafik icmalları", "Tematik icmallar", "Universal biblioqrafik icmallar", "Kitab müzakirələri" və s. daxildir. Göstərdiyimiz şifahi təbliğat formalarından istifadə etməklə, geniş təbliğat işi aparmaq oxucuların dövlətçiliyə dair sorğularına cavab vermək və onların bu problemə dair müxtəlif sorğularını ödəmək işi xeyli asanlaşır. Son zamanlar respublikamızda yeni çıxan ən mühüm elmi, bədii, publisistik, siyasi və s. ədəbiyyatın təbliği üçün şifahi, kütləvi təbliğatın forması olan "yeni kitabların təqdimatı" geniş yayılmışdır. Ayrı-ayrı təşkilatlar, cəmiyyətlər yeni kitabların təqdimatını keçirməyə böyük diqqət yetirirlər. Respublikamızda müstəqillik dövründə daha geniş vüsət almış kitab təqdimatlarının keçirilməsi olduqca böyük mədəni və siyasi əhəmiyyətə malikdir. Yeni kitabların təqdimatı son zamanlar kitabxanalar tərəfindən də həyata keçirilməkdədir. Yeni kitabların təqdimatının dövlətçiliyin təbliğində böyük əhəmiyyətə malik bir tədbir olduğundan yeni kitabların təqdimatı, bütün kütləvi kitabxanalarda da təşkil edilir. Dövlətçiliyin kitabxanalarda təbliği işində ədəbiyyatın kompleks təbliği mühüm əhəmiyyət kəsb edir. Ədəbiyyatın kompleks təbliği insan amilinin for-

malaşması, yeni insanın tərbiyə edilib yetişdirilməsi işində mühüm əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan dövlətçiliyi yüksək səviyyədə inkişaf edir. Bu inkişafı təbliğ etmək üçün isə kitabxanalarda daha geniş tədbirlər həyata keçirilməli, maarifləndirmə işi aparılmalıdır. Oxuculara Azərbaycan tarixi, coğrafiyası, iqtisadiyyatı, mədəniyyəti, səhiyyəsi və hərb sənətilə bağlı məlumatlar verilməli, gənclərə dövlətçilik ənənələri aşılanmalı, Azərbaycanın regionda və dünyada tutduğu mövqe izah edilməlidir. Kitabxanaların daxili tərtibatında müstəqil Azərbaycanın atributları və dövlət rəmzləri – bayraq, gerb, himn və ölkəyə dair digər məlumatların əks olunduğu stendlərin, guşələrin olması mühüm əhəmiyyət kəsb edir [6, s.31]. Keçirilən bütün tədbirlərdə, hətta ekskursiyaların özündə belə dövlətçiliyin təbliğinə xüsusi diqqət yetirmək lazımdır. Təbliğat işlərində, hərbi vətənpərvərlik tərbiyəsinin kökündə dövlətçilik prinsipi dayanmalı və böyüyən nəslin ideyalarına, düşüncələrinə, baxışlarına, əməllərinə hopmalıdır. Azərbaycan xalqının tarixi, xüsusən də Azərbaycan xalqının dövlətçilik ənənələri, xalqın tarixində mövcud olmuş ənənələr, milli-etnik tarixi, coğrafiyası, maddi və mənəvi abidələri, folkloru ümumilikdə isə ulu babalarımızın irs qoymuş olduğu milli mədəniyyəti və mənəvi dəyərləri, incəsənəti və ədəbiyyatı dərindən öyrənilməli və hərtərəfli təbliğ olunmalıdır. Dövlətçilik hissi insanın öz vətəninə sevgi və sədaqətindən, onun tarixi, milli və mədəni dəyərləri üçün qürur hissi keçirməkdən, doğma vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir. Dövlətçilik hissi insanlara bütün yaş dövrlərində aşılanmalıdır. Kitabxanalarda keçirilən ədəbi və mədəni tədbirlər insan psixologiyasına daha çox və tez təsir göstərir. Ədiblərimizin dövlətçilik tərənnümü və vətənpərvərlik ruhun da yazdığı şeirlərinin müsabiqəsini təşkil etmək, nəsr əsərlərindən tamaşalar səhnələşdirmək, vətənə sədaqət, onun maddi və mənəvi dəyərlərini qorumağı təbliğ etmək dövlətçilik hisslərinin formalaşdırılmasında əvəzsiz rol oynayır. Kitabxanaların fondu milli vətənpərvərlik və vətəndaşlıq, milli mədəni və ya mənəvi dəyərləri təbliğ edən kitablarla zənginləşdirilməlidir. Xüsusilə, təbliğat dövlətçilik üzərində qurulmalı, Azərbaycan tarixi, etnoqrafiyası dəqiq şəkildə təbliğ edilməlidir. Kütləvi tədbirlərdə nümunəvi ziyalı və vətənpərvər dövlət xadimlərinin həyat və fəaliyyəti geniş işıqlandırılmalıdır. Həmçinin, tarixi qəhrəmanlarımızın, vətənin azadlığı uğrunda canından keçən Milli Qəhrəmanlarımızın, şəhid və Qarabağ müharibəsi veteranlarının da qəhrəmanlıqları geniş təbliğ edilməlidir. Qeyd edək ki, kitabxanalarda təşkil edilən dövlətçilik məzmunlu sərgilərdə dövlətçilik ənənələri mövzusunda yazılmış bədii, publisistik kitablarla yanaşı, müxtəlif qəzet və jurnal materialları da əks etdirilir ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır. Sərginin məqsəd və məramını açmaq üçün izahlı mətnlərdən, ayrı-ayrı elm xadimlərinə istinad edən sitatlardan istifadə etmək lazımdır. Kitabxanaların fəaliyyət sahəsi olan kitabxana işi həmçinin dövlətçiliyin təbliği ilə bağlı olduğundan kitabxananın bütün fəaliyyəti xüsusi ilə oxuculara xidmət işi bu prosesin mühüm tərkib hissəsidir. Kitabxana işi bir fəaliyyət sahəsi kimi elm, informasiya mədəniyyət, təhsil, tərbiyə sahəsində, həmçinin kitabxana şəbəkələrinin təşkil və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, kitabxana-informasiya xidmətinin təşkili, kitabxanaların elmi-maddi təminatı sistemlərini tənzimləyən bir proses kimi həmişə dövlətlə ilə sıx əlaqədə olmuşdur. Hələ çox qədim kitabxanalarda kitabxana işi bir fəaliyyət sahəsi kimi formalaşarkən dövlətlər bu prosesin təminatçısı kimi kitabxana fəaliyyəti sisteminin ayrı-ayrı komponentlərinin əlaqələndirilməsində yaxından iştirak etmişdir. Kitabxana dövlət münasibətləri demək olar ki, kitabxana fəaliyyətinin bütün sahələrində, xüsusi ilə oxucu ilə kitabxanaçı arasında, kitabxananın məlumat axtarış sistemləri ilə oxucu arasında, qlobal şəbəkəyə qoşulmuş kitabxana, kitabxanaçı ilə oxucu arasında daha geniş baş verir [2, s.12]. Bu proseslərdə kitabxanaçı oxuculara dövlətçilik təbliğini ünsiyyət, söhbət və məsləhət formalasında aparır. Kitabxanaçı ilə oxucu arasında baş verən ünsiyyət canlı təsiri növü kimi böyük əhəmiyyət kəsb edir. Ünsiyyət vaxtı kitabxanaçı oxucu haqqında geniş məlumat alır, oxucunun maraq dairəsini, şəxsiyyətini, sənətini, öyrənir və oxucu marağının gələcəkdə ödənilməsini müəyyənləşdirir. Hal-hazırda respublikanın bütün kitabxanalarında dövlətçiliyin təbliğinə dair məlumat-informasiya fondunun yaradılması sahəsində müvafiq addımlar atılır. Bu mənada M.F.Axundov adına Milli Kitabxana Müstəqil Azərbaycan dövlətçiliyinin təbliğinin əsas mərkəzi kimi bu istiqamətdə fəaliyyətini planlaşdırır. Ulu öndərin təşəbbüsü ilə 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" qanunda göstərilir: Mill Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli əsərləri və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır [6, s.4]. Buna görə də Milli Kitabxana respublikadakı bütün kitabxanalara dövlətçiliyin təbliğində metodik rəhbərlik funksiyasını həyata keçirir. Dövlətçiliyin təbliğinin zəruriliyi nəzərə alınaraq Milli Kitabxanada vaxtaşırı dövlətçiliyin təbliğinə həsr edilmiş guşələr yaradılır və bu guşələrdə ən zəruri ədəbiyyat və dövrü mətbuatın nümunələri əks etdirilir, guşələrdə nümayiş etdirilən ədəbiyyat və dövrü mətbuat vaxtaşırı yenilənir.



Elmi kitabxanalarda "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbə"sinin yaradılması istiqamətində bır sıra addımlar atılmaqdadır. Bu mənada AMEA-nın Mərkəzi Elmi Kitabxanası və Respublika Elmi-Texniki Kitabxanasını misal göstərmək olar. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında yaradılmış "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" şöbəsində ulu öndərin əsərləri ilə yanaşı olaraq ulu öndər haqqında yazılmış Azərbaycan dilində ədəbiyyat və xarici dillərdə ədəbiyyat, Prezident İlham Əliyevin əsərləri, rəsmi dövlət sənədləri video materiallar, milli media vasitələri toplanmalı və ardıcıl olaraq toplanmışdır. Respublika Elmi-Texniki Kitabxanasında yaradılmış "Kütləvi işlər və təbliğat şöbəsi"nin əsas fəaliyyət istiqaməti ulu öndər Heydər Əliyevin

elmi-nəzəri irsinin və Azərbaycanın dövlətçilik ənənələrinin təbliğinə yönəlmişdir. Şöbənin təşəbbüsü ilə həyata keçirilən kütləvi tədbirlərdə, kitab sərgilərində dövlətçiliyin təbliği daima ön plana çəkilir və bu sahədə oxuculara müvafiq fikirlər aşılanır. Bu tip şöbələrin yaradılmasına artıq bütün elmi kitabxanalarda və MKS-lərdə başlanmışdır.

Respublika əhəmiyyətli kitabxanalarda Heydər Əliyev irsinin və dövlətçiliyin təbliği sahələrində bir sıra struktur islahatlatları aparılmışdır. Yaradılmış yeni şöbələr öz fəaliyyətini bilavasitə dövlətçiliyn təbliği problemlərinə, onun elmi metodiki əsaslarının hazırlanmasına həsr edir. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası gənc oxuculara dövlətçiliyin təbliği sahəsində bir sıra addımlar atmışdır. Kitabxanada mövcud olan "Azərbaycan xidmət şöbəsi" kitabxanaya yeni üzv olan hər bir oxucuya kitabla düzgün davranış qaydalarını aşılamaq, hər bir oxucunu kitabxananın fəaliyyəti, eləcə də fondda dövlətçiliyə dair mövcud olan ədəbiyyat nümunələri haqqında məlumatlandırmaq, kitab fonduna yeni daxil olan ədəbiyyatlar haqqında məlumat göndərməyi təmin etmək, müxtəlif mövzularda, xüsusilə dövlətçilik haqqında təşkil olunan kütləvi tədbirlərə cəlb etmək, yeniyetmə və gənc oxucuların vətənpərvərlik tərbiyəsində müəyyən dərəcədə rol oynamaq istiqamətində fəaliyyət göstərir. Şöbə həmçinin dövlətçiliyin təbliğinə dair nəşr olunan yeni kitabları və dövri mətbuat materiallarını toplayaraq həm kitabxananın fondunda, kataloq və kartotekalarda yerləşdirilməsinə xüsusilə nəzarət edir və gənc oxucuları bu istiqamətə cəlb edilməsində fəal iş aparır. Respublika əhəmiyyətli F.Köçərli adına Respublika Uşaq Kitabxanasının üzərinə də böyük məhsuliyyət düşür. Kitabxananın oxucu olan uşaqlar məhz bu kitabxananın fondu sayəsində vətənpərvərlik haqqında kitablar əldə edərək milli ruhda formalaşırlar. Bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlmək məqsədi ilə 2009-cu ildə kitabxananın nəznində "Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi" yaradıldı. Şöbənin əsas vəzifəsi ölkəşünaslıq və milli əsəbiyyata dair məlumat-informasiya aparatını təşkil edərək, uşaqlara milli vətənpərvərlik ruhunda informasiya xidməti göstərmək, həmçinin bu sahədə müxtəlif tədbirlər keçirməkdir. Şöbədə Azərbaycan haqqında, azərbaycan dövlətçiliyi haqqında, azərbaycan uşaq əsəbiyyatı haqqında mütəlif növ kitablar və dövri mətbuat materialları öz əksini tapmışdır. Bu şöbənin kiçik yaşlı oxuculara xidmət göstərməsi ilə artıq deyə bilərik ki, Respublika Uşaq Kitabxanası ölkəmizdə uşaqların milli vətənpərvərlik ruhunda böyüməsi işində öz funksiyasını tam icra edir.

Dövlətçiliyin təbliği sahəsində respublika əhəmiyyətli qanunların, qərarların, sərəncamların, fərmanların xüsusi əhəmiyyəti vardır. Kitabxanalar dövlətçiliyin təbliği sahəsində öz fondlarını bu məlumatlarla da xüsusi ilə komplektləşdirməlidirlər. Ulu öndər dövlət aparatında çalışan işçilərə yüksək kitabxana-informasiya xidməti göstərmək, həmçinin bu tip qanunları, fərmanları, sərəncamları, qərarları və digər zəruri sənədləri toplayaraq qoruyub saxlamaq və onlardan istifadə edilməsi üçün Prezident Kitabxanasının və Milli Məclisin Kitabxanasının yaradılmasını zəruri saymışdır. Prezident Kitabxanasının missiyası ali dövlət orqanlarında və digər icra qurumlarında çalışan dövlət qulluqçularına, eləcə də, informasiya maraqları kitabxananın profilinə uyğun olan digər tələbatçılara kitabxananın fondunda olan sənədlərlə, burada yaradılan müxtəlif ilkin məlumat-informasiya resursları ilə mükəmməl kitabxana-informasiya xidməti göstərməkdir [3, s6]. Oxucular Azərbaycan dövlətçilik tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, elmin müxtəlif sahələrinə dair əsərlərə və müstəqillik dövründə yeni təfəkkür tərzi, dövlətçiliyin təbliği baxımından yazılmış əsərlərin öyrənilməsinə böyük maraq göstərirlər. Bu baxımdan Prezident Kitabxanasında "Prezident, dövlət idarəçiliyi və ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası" şöbəsinin təşkili təqdirəlayiqdir. Bu şöbədə Azərbaycanın tarixini, iqtisadiyyatını, siyasətini, mədəniyyətini yaxşı bilən yüksək ixtisaslı mütəxəssislərin toplanması azərbaycan dövlətçiliyinin mühüm bir sahə kimi öyrənilməsinə, təbliğ edilməsinə, oxuculara çatdırılmasına, oxucu sorğularının ödənilməsinə olduqca böyük təsir edir. Şöbə bu məqsədlə Azərbaycan dövlətçiliyinə dair yeni nəşrləri izləyir, onun əldə edilməsini təmin etməklə yanaşı, oxuculara, xüsusilə, Prezident Aparatının işçilərinə çatdırmaq, vaxtlı-vaxtında onları məlumatlandırmaq üçün kitab icmalları, biblioqrafik göstəricilər, tövsiyə siyahıları hazırlamağı nəzərdə tutur [4, s45]. Şöbə həmçinin dövri mətbuat materiallarının toplanmasını və dövlətçiliyin ayrı-ayrı sahələrinə dair biblioqrafik siyahıların tərtib edilməsini, məqalələr toplusu qovluqlarının yaradılmasını təmin edir. Prezident Kitabxanası ilə yanaşı Milli Məclisin Kitabxanası da öz fondunu dövlətçiliklə bağlı ədəbiyyatlarla zənginləşdirmişdir. Kitabxananın əsas vəzifəsi dövlətçiliyin təbliğinə dair parlament üzvlərinin və qanunvericilik işində iştirak edən idarə və şöbələrin məlumat-informasiya tələbatını ödəməkdir. Kitabxanınn fondun əsasını "Qanunvericilik topluları" təşkil etsə də, kitabxana həmçinin Azərnəşrdən Azərbaycan dilində olan bütün dövri nəşrləri alır.

**Nəticə.** Qloballaşma prosesi elm, texnika, texnologiya ilə yanaşı milli kimliyi müəyyən edən dövlətçilik ənənələrinə də sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə nələri mühafizə etmək lazım olduğunu təyin etmək üçün, ilk növbədə parametrlər müəyyənləşməlidir. Bu gün bizim vətəndaş borcumuz doğma torpağımıza, doğma ana dilimizə, mədəniyyətimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan və onu təbliğ etməkdən ibarətdir. Azərbaycanın dövlətçiliyi, dövlətçilik ənənələrinin mövcudluğunun bütün təzahürləri bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşməlidir. İndi bizim qarşımızda bir tərəfdən milli köklərə qayıdış, digər tərəfdən də elmi-texniki inkişaf və informasiya cəmiyyətinin qoyduğu çağdaş tələblərə uyğunlaşmaq vəzifəsi durur. Hər bir şəxsin fərdi-mənəvi aləmində gedən proseslər də bütövlükdə millətin mənəvi həyatı ilə bağlı problemləri xatırladır. Xalqımıza xas olan, onun dövlətçilik ənənələrindən doğan çox yaxşı keyfiyyətləri var. Biz bu gün milli dövlətçiliyimizi qorumaqla və təbliğ etməklə Azərbaycan xalqının mənliyini, kimliyini qorumuş oluruq. İndi hər bir kitabxana Azərbaycanın gündən-günə gücləndiyi indiki şəraitində gənc nəsildə doğma torpağa və xalqa

məhəbbət, mili-mənəvi dəyərlərimizə qayğı, vətənin ərazi bütövlüyünə və müstəqilliyinə sədaqət, cəsarət və hünər kimi hisslər və yüksək ideyalar aşılanmasında ön sırada getməli, oxucuların bütün zəruri tələbatlarını ödəməyə çalışmalıdır. Ulu öndər Heydər Əliyev tərəfindən elmi-nəzəri cəhətdən əsaslandırılmış Azərbaycan dövlətçiliyi müstəqil dövlətimizin, xalqımızın, müasir cəmiyyətimizin inkişafında böyük rolu və titanik əhəmiyyəti vardır [5, s.18]. Bu konsepsiyanın təbliği bütün ideoloji müəssisələr, birinci növbədə isə respublika kitabxanalarının müqəddəs vəzifəsidir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə" Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodiki və təcrübi jurnal. – 2008. – №2. – S.7-30.
2. Xələfov A. Kitabxanalarda milli ideologiyanın və dövlətçiliyin təbliği problemləri // Kitabxanaşünslıq və informasiya. – №.1. – S.3-26.
3. Xələfov A. Ölkəmizdə ilk fundamental elektron kitabxana // "Xalq" qəzeti.- 2006. – 18 fevral. – №36. – S.6.
4. Məmmədov M., Rzayeva Z. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında yaradılan layihə tipli tammətnli resurslar elektron kitabxananın innovativ resurs növü kimi // Kitabxanaşünaslıq və biblioqrafiya. – №2(47), – S.43-51.
5. Xəlilov S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. – Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002. – 232 S.
6. Kitabxanalarda Heydər Əliyev irsinin və Azərbaycançılıq ideyasının təbliği: metodik tövsiyələr // tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. – Bakı, 2013. – 59S.



**М.Меммедов, Г.Ализаде**


**Создание информационного фонда по продвижению государственности в библиотеках**


***Резюме:*** *Азербайджан имеет древнюю историю государственности. Глубокое исследование этой истории и популяризация в обществе одна из актуальнейших задач современности. В статье прокомментировано современное состояние пропаганды традиций государственности Азербайджана в библиотечно-информационном пространстве, предоставлена информация о создании информационных фондов по продвижению государственности в применении новых информационных технологий.*



***Ключевые слова:*** *государственность, пропаганда, библиотечно-информационное пространство, электронная библиотека, электронная база данных, электронный каталог, информационный фонд*





**M.Mammadov, H.Alizade**


**Creation of an information fund for the promotion of statehood in libraries**


***Summary:*** *Azerbaijan has an ancient history of statehood. A deep study of this history and popularization in society is one of the most urgent tasks of our time. The article comments on the current state of propaganda of the traditions of statehood in Azerbaijan in the library-information space, provides information on the creation of information funds to promote statehood in the application of new information technologies.*



***Key words:*** *statehood, propaganda, library-information space, electronic library, electronic database, electronic catalog, information-information fund*

***Rəyçi:*** *p.ü.f.dok.,dos.* ***N.İ.İsmayılov***